# Nə qastrola, nə məzuniyyətə... ancaq Bakıya musiqi bayramına

Beynəlxalq tədbirləri yüksək səviyyədə keçirmək bacarığı ilə tanınan Azərbaycan növbəti dəfə mühüm uğura imza atdı. İyulun 9-10-da Bakıda yay mövsümünün ən hərarətli hadisəsi "Jara" ("İsti günlər") Beynəlxalq Musiqi Festivalı keçirildi. "Sea Breeze" istirahət mərkəzində təşkil olunan festival nəinki Azərbaycan, eləcə də Rusiyanın mədəni həyatında mühüm hadisəyə çevrildi. Təşkilatçılar festivalın yüksək səviyyədə baş tutması üçün hər bir xırda detalı nəzərə almışdılar.

Festivalda Qriqori Leps, Polad Bülbüloğlu, Filip Kirkorov, Stas Mixaylov, Polina Qaqarina, Vladimir Presnyakov, Nyuşa, Leonid Aqutin, Sergey Lazarev, Timati, "A-Studio", Nikolay Baskov, Valeriya, Ani Lorak, Emin, Aleksey Vorobyov, "MBAND", Potap və Nastya dueti, Zülfiyyə Xanbabayeva, Tünzalə Ağayeva, "Rast" qrupu, Səmra Rəhimli, Burito, "A-DESSA" qrupu, Ciqan, Svetlana Loboda, Yeva Polna, N`everqrin, Vlad Sokolovski, Yulianna Karaulova və bir çox digər artistlər iştirak etdilər.

"Life.ru" saytı yazır ki, Rusiya artistləri qastrollarını və məzuniyyətlərinə ara verərək Bakıya gəldilər ki, çoxminli auditoriya qarşısında çıxış etsinlər.

Azərbaycan və Rusiyanın ən yaxşı artistləri parlaq nömrələri ilə festivalın qonaqlarına 2 gün ərzində unudulmaz anlar yaşatdılar. Aparıcılar həm səhnədə, həm də zalda işlədilər. Qonaqlar interaktiv prosesə və televiziya versiyasına cəlb olundular. Çoxlu sayda yay musiqi festivallarının mövcudluğuna baxmayaraq, "Jara" festivalı musiqi həyatında həqiqətən əlamətdar hadisəyə çevrildi. Şübhəsiz ki, belə tədbirləri keçirmək üçün dövlətin dəstəyi ən mühüm məsələlərdən biridir. Bunu festivalın təşkilatçısı Emin də xüsusi vurğuladı: "Dövlət səviyyəsində kömək olmadan bu miqyasda tədbiri təşkil etmək mümkün deyil. Mən göstərdikləri yüksək diqqət və dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya, həmçinin Leyla Əliyevaya şəxsən dərin təşəkkürümü bildirirəm".